

# Abidələrimizin bərpası

## onların qorunaraq gələcək nəsillərə ötürülməsi deməkdir

### Birinci məqalə

*"Azərbaycan Respulikasına qarşı əsassız ərazi iddiaları irəli sürən erməni millətçiləri işğalçılıq əməllərinə haqq qazandırmaq məqsədilə Qafqaz Albaniyasının xristian kilsələrinə aid bütün kilsə, məbəd və monastırları erməni abidələri elan edirlər" (9).*

Təbii ki, bu haqsızlıqların qarşısı gec-tez alınacaqdır. Amma bütün bunlar bizə əlimizi-əlimizin üstünə qoyub gözləməyə əsas vermir. Xatırlamalıyıq ki, "Azərbaycanın zəngin milli mədəniyyətinin qorunub saxlanılması və istifadəsi problemləri ölkənin əsas Qanununda - Azərbaycan Respublikası Konstitusiyasında öz əksini tapmışdır: "Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır" (Maddə 40).

1997-2001-ci illərdə Azərbaycan xalqının mədəni və təbii irsinin mühafizəsi, qorunub saxlanması, bu irs əşyalarının oğurlanması və qaçaqmalçılıq yolu ilə daşınmasına qarşı mübarizənin gücləndirilməsi sahəsində geniş Proqram qəbul edilmişdir. Həmin proqram çərçivəsində respublikada əsas Beynəlxalq Konvensiyalar ratifikasiya edilmiş, bir sıra qanunlar qəbul olunmuşdur" (5).

Bu mənada, son 5-6 ildə görülmüş məqsədyönlü işlər xüsusi razılıq doğurur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2000-ci il tarixli, 270 saylı Fərmanına əsasən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası Komitəsi ləğv edilmiş və onun bütün səlahiyyətləri Azərbaycan Respublikasının Mədəniyyət (Mədəniyyət və Turizm - **Y.V.**) Nazirliyinə verilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 iyun 2000-ci il tarixli 128 saylı "Azərbaycan Respublikası, Mədəniyyət (Mədəniyyət və Turizm - **Y.V.**) Nazirliyinin mərkəzi aparatının ştat sayının artırılması haqqında" qərarına əsasən nazirlikdə Abidələrin Qorunması, Bərpası və İstifadəsi Baş İdarəsi yaradılmışdır.

Bu qərardan sonra Baş İdarə Azərbaycan Respublikası Konstitusiyasını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və göstərişlərini, Azərbaycan Respublikası Mədəniyyət (Mədəniyyət və Turizm - **Y.V.**) Nazirliyinin Əsasnaməsini, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanunlarını rəhbər tutaraq əməli fəaliyyətə başlamışdır.

Baş İdarədə "Azərbaycan Respublikasının ərazisindəki abidələrin elmi tədqiqi, bərpası, regenerasiyası, rekonstruksiyası və konservasiyasında beynəlxalq təşkilatların iştirak etmə qaydası", "Arxeoloji qazıntıların aparılmasına xüsusi razılıq (lisenziya) verilməsi qaydaları" hazırlanaraq respublikanın əlaqədar nazirlikləri, komitələri və baş idarələri ilə razılaşdırıldıqdan sonra Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuşdur.

Bu dövrdə "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq dövlət mühafizəsinə götürülmüş abidələrin əhəmiyyət dərəcəsinə görə bölgüsü aparılmış və bu silahı Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli, 132 nömrəli qərarı ilə təsdiq edilmiş, istifadə olunmaq üçün respublikanın əlaqədar təşkilatlarına, rayon mədəniyyət (mədəniyyət və turizm- **Y.V.**) idarələri və şöbələrinə, tarix-mədəniyyət qoruqlarına göndərilmişdir.

Mədəniyyət (Mədəniyyət və Turizm - **Y.V.**) Nazirliyi rəhbərliyinin yaxından köməkliyi nəticəsində 2000-ci ilin dekabr ayında Bakıdakı Şirvanşahlar sarayı və Qız Qalası ilə birlikdə İçəri Şəhər Dövlət Tarix-Memarlıq Kompleksi Azərbaycanın abidəsi olaraq YUNESKO-nun Dünya İrs Siyahısına daxil edilmişdir.

Bu məqsədlə YUNESKO-nun Fransada və Avstriyada keçirdiyi tədbirlərdə baş idarənin təqdimatı əsasında Nazirliyin "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutunun və "Mədəni İrsin qorunması layihəsinin" İşçi qrupunun əməkdaşlarının iştirakı təmin olunmuşdur. Baş idarənin yaxından iştirak etdiyi mötəbər Beynəlxalq məclislərdən biri də 2000-ci ilin dekabr ayında Latviya Respublikasında keçirilmiş "Avropa-Ümumi İrs" kompaniyasının yekun iclası olmuşdur.

Respublika ərazisində tarix və mədəniyyət abidələrində aparılan bərpa işlərini canlandırmaq məqsədi ilə mədəniyyət (mədəniyyət və turizm - **Y.V.**) nazirinin əmri ilə Bakı şəhərində, Naxçıvan Muxtar Respublikasında, Şəki, Bərdə və Masallı rayonlarında Elmi-Bərpa İstehsalat idalərəi yaradılmış, Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası Komitəsinin tərkibində uzun müddət fəaliyyət göstərən 14 bərpa idarəsinin və ema-



***Azərbaycan xalqı öz torpağının, sərvətinin qiymətini, azadlığını dərk edəndən bəri təcavüzlərə məruz qalıb. Baharı xəzana dönən, torpağı öz qanıyla suvarılan xalqımız tarix boyu ağır sınaqlardan keçib əzilsə də, başı əyilməyib, dizi bükülməyib (1). Bununla belə unutmamalıyıq ki, "tariximiz, mədəniyyətimiz müəyyən vaxtlarda tədqiq edilsə də, ona tendensiyalı münasibət olmuş, bir çox hallarda mənəvi dəyərlərimizi gözdən salmaq üçün bu iş qərəzli, daxilən millətə yad və düşmən adamlara tapşırılmış, kimliyimiz, soykökümüz, dilimiz danılmış, təhrif edilmişdir. Ziyalılarımızı savadsız qoymaqdan ötrü təhsil və maarif sistemimiz, əlifbamız, milli mədəniyyətə münasibətimiz dəfələrlə dəyişdirilmiş, özgələşdirilmişdir" (8).***

latxanasının özəlləşdirilməsi üçün təklif hazırlanmış və İqtisadi İnkişaf Nazirliyinə təqdim olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 29 mart 2001-ci il tarixli Sərəncamı ilə özəlləşdirməyə açıq elan edilmiş keçmiş Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi və Bərpası Komitəsinin özəlləşdirməyə təqdim olunmuş 14 idarəsindən 4 bərpa istehsalat idarəsinin və 1 yardımçı təsərrüfatın özəlləşdirilməsi barəsində sənədlər tərtib olunmuş və İqtisadi İnkişaf Nazirliyinin Dövlət Əmlakının Özəlləşdirilməsi Departamentinə göndərilmişdir. Departamentlə aparılmış birgə əməkdaşlıq nəticəsində Elmi-Bərpa Sənaye Kombinatı, Lənkəran Elmi-Bərpa İstehsalat İdarəsi, Qusar Bərpa-İstehsalat Təchizat İdarəsi, Ağdaş Yardımçı Təsərrüfatı əmək kollektivləri tərəfindən özəlləşdirilmişdir.

Bu illər ərzində Mədəniyyət (Mədəniyyət və Turizm - **Y.V.**) Nazirliyi tərəfindən 15 abidədə bərpa və konservasiya işləri aparılmışdır. Bakı şəhəri, M.Muxtarov-83 saylı ünvanda yerləşən hamam binasının "YUĞ" teatrına uyğunlaşdırılması, Şəki şəhərindəki Qala divarlarında bərpa, Şəki şəhəri Yuxarı baş tarix-memarlıq qoruq muzeyi ərazisindəki təcridxana binasında qəzanın aradan qaldırılması, Qax rayonu İlusu kəndi ərazisindəki "Sumuq qala" abidəsində, Qax rayonu Əmbərçay kəndi ərazisindəki "Kürmük" məbədinin dam örtüyü və fasadında, Masallı rayonu Ərkivan kənd məscidində, Bərdə rayonu Təzəkənd məscidində bərpa, Gəncə şəhərindəki "Çökək" hamamında və Nizami Gəncəvi türbəsində, Lənkəran şəhəri "Mir Əhməd xanın yaşayış evi"ndə, həmçinin Mərdəkan qəsəbəsindəki "Axund Abu Turab" türbəsində bərpa, "Kiçik Mərdəkan qəsri" ətrafında abadlıq, Hacıqabul rayonu Qubalı Baloğlan kəndi ərazisindəki "Pir Hüseyn xanəgahı"nda bərpa və konservasiya, Naxçıvan Muxtar Respublikası Culfa rayonu ərazisindəki "Xanəgah" memarlıq kompleksində bərpa və abadlıq, Naxçıvan şəhərindəki "Kərpic zavodu" və "Buzxana" abidələrində bərpa işləri aparılmışdır.

Qax rayonu İlusu kəndi ərazisindəki "Sumuq qala" abidəsində bərpa, Qax rayonu Əmbərçay kəndi ərazisindəki "Kürmük" məbədinin dam örtüyü və fasadında bərpa, Masallı rayonu Ərkivan kənd məscidində bərpa, Bərdə rayonu Təzəkənd məscidində bərpa, Gəncə şəhərindəki "Çökək" hamamında bərpa, Lənkəran şəhəri "Mir Əhməd xanın yaşayış evi"ndə bərpa, Naxçıvan şəhərindəki "Buzxana" abidəsində bərpa işləri başa çatdırılmışdır. Digər abidələrdə isə işlər davam etdirilir. Naxçıvan Muxtar Respublikası Culfa rayonu ərazsindəki "Xanəgah" memarlıq kompleksində bərpa və abadlıq, həmçinin Mərədəkan qəsəbəsindəki "Kiçik Mərdəkan qəsri" ətrafında abadlıq işlərinin bu ildə başa çatdırılması nəzərdə tutulmuşdur.

Hal-hazırda Qusar rayonu Həzrə kəndindəki "Şeyx Cüneyd" türbəsində bərpa işlərinin aparılması ilə bağlı tender sənədləri hazırlanır.

Salyan rayonundakı "Cümə" məscidinin Kür çayının daşması ilə əlaqədar qəza vəziyyətinə düşməsi ilə bağlı Mədəniyyət (Mədəniyyət və Turizm - **Y.V.**) Nazirliyi tərəfindən Azərbaycan Respublikası Baş Nazirinin müavini, Fövqəladə Hallar üzrə Dövlət Komissiyasının sədri cənab A.Şərifova iki dəvə müraciət olunmuşdur.

Respublika ərazisində təxirəsalınmaz bərpa işlərinin aparılması ilə əlaqədar vacib olan abidələrin siyahısı tərtib edilmiş və bu siyahı Nazirlər Kabinetinə təqdim edilmişdir.

Qax rayonu "Sumuq qala" abidəsində bərpa işləri başa çatdırılmış və abidənin yerləşdiyi coğrafi mövqedən asılı olaraq abidəni və yaxındakı kənd evlərini sel sularından mühafizə etmək üçün layihə-smeta sənədləri hazırlanmışdır. Xüsusi təyinatlı vəsaitin ayrılması məqsədilə Azərbaycan Respublikası Baş Nazirinin müavini, Fövqəladə Hallar üzrə Dövlət Komissiyasının sədri cənab A.Şərifova müraciət olunmuşdur.

Abidələrdə bərpa işləri mövcud tikinti norma və qaydalarına uyğun olaraq aparılmışdır. Bərpa işlərini aparan təşkilatın müəyyənləşdirilməsi üçün Satınalmalar üzrə Dövlət Agentliyinin metodiki köməkliyi sayəsində "Dövlət Satınalmaları Haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq müvafiq satınalma metodlarından istifadə edilmişdir.

2000-2004-cü illər ərzində Mədəniyyət (Mədəniyyət və Turizm - **Y.V.**) Nazirliyinin sifarişi ilə 33 abidənin layihə smeta sənədləri üzrə işlər aparılmışdır. Şəki şəhərindəki Qala divarlarının, Qusar rayonundakı "Şeyx Cüneyd" türbəsinin, Mərdəkan qəsəbəsindəki "Axund Abu Turab" türbəsinin, Qax rayonu İlisu kəndindəki "Sumuq qala" abidəsinin, Naxçıvan Muxtar Respublikasının Culfa rayonundakı "Xanəgah" memarlıq kompleksinin, Lənkəran şəhərindəki "Mir Əhməd xanın yaşayış evi"nin, Gəncə şəhərindəki "Çökək" hamamının, Qax rayonunun Əmbərçay kəndi ərazisindəki "Kürmük" məbədinin dam örtüyü və fasadının, Salyan şəhərindəki "Cümə" məs-

cidinin, Şirvanşahlar Sarayı Kompleksinə daxil olan saray binasının I mərtəbəsində, saray məscidində, qala divarlarında, hamamda, Quba rayonu Rustov kənd məscidində, Şəki şəhərindəki Nakam adına mərkəzi şəhər kitabxanasında, Gəncə şəhərindəki Nizami Gəncəvi məqbərəsində, Bakı şəhəri Nəsimi rayonu ərazisindəki "Əjdərbəy" məscidində bərpa, Bakı şəhəri M.Muxtarov küçəsi-83 saylı ünvanda yerləşən hamam binasının "YUĞ" teatrına uyğunlaşdırılması, Bakı şəhəri Nardaran qəsəbəsi, "Xan bağı" abidəsi ətrafında drenaj sisteminin qurulması və abadlıq, Bakı şəhəri C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının baş korpusunun və mühəndis kommunikasiyalarının təmiri, Hacıqabul rayonu Qubalı Baloğlan kəndi ərazisindəki "Pir Hüseyn" xanəgahında bərpa, konservasiya və möhkəmləndirmə, Bakı şəhəri Mərdəkan qəsəbəsindəki "Kiçik Mərdəkan qəsri" ətrafında abadlıq, Qax rayonu İlisu kəndi "Sumuq qala" abidəsinin sel sularından mühafizəsi məqsədilə mühafizə tədbirlərinin və su aşıran körpünün, Dəvəçi rayonu "Çıraqqala" qoruğunun mövcud qanunlara uyğun olaraq Azərbaycan Respublikası Dövlət Tikinti və Arxitektura Komitəsində ekspertiza olunmuşdur.

Mədəniyyət (Mədəniyyət və Turizm - Y.V.) Nazirliyinin sifarişi ilə eyni zamanda YUNESKO-nun Mədəni İrs Siyahısına daxil edilməsi üçün Ordubad tarix-memarlıq qoruğunun, Şuşa tarix-memarlıq qoruğunun, "Şəki Xan sarayı" ilə birlikdə Şəki tarix-memarlıq qoruğunun, Xəzəryanı müdafiə tikililərinin və II mərhələ üzrə sənədləşdirləcək abidələr üzrə "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutu tərəfindən işlər aparılmışdır.

2005-ci ildə Gəncə şəhərindəki "Zərrabi" məscidinin, Lerik rayonu Xanəgah kəndindəki "Xoca Seyid" türbəsinin, Şamaxı rayonu Kələxana kəndindəki "Türbələr kompleksi"nin bərpa, Qax rayonu İlisu kəndi "Sumuq qala" abidəsi ətrafında abadlıq, Astara rayonu Ərcivan kəndindəki ləmin, İsmayıllı rayonu Basqal kəndindəki hamamın, Qəbələ rayonu Həzrə kəndindəki "Türbələr kompleksi"nin bərpa layihələrinin hazırlanması nəzərdə tutulmuşdur.

Azərbaycan Hökuməti ilə Dünya Bankı arasında bağlanmış kredit müqaviləsinə əsasən Mədəniyyət (Mədəniyyət və Turizm - Y.V.) Nazirliyinin tabeliyində "Mədəni İrsin qorunması" layihəsinin işçi qrupu yaradılmış, mədəniyyət (mədəniyyət və turizm - Y.V.) nazirinin əmrinə əsasən qrupun koordinatoru təyin olunmuş, ona kredit müqaviləsində nəzərdə tutulmuş tədbirlərin planlı şəkildə həyata keçirilməsi tapşırılmışdır.

Mədəni İrsin Qorunması Layihəsinin inkişafı məqsədilə 3207 AZ kredit Sazişi imzalanmışdır. Sazişə əsasən Azərbaycanın mühüm əhəmiyyət kəsb edən dörd tarixi abidəsində - Bakı şəhərindəki Şirvanşahlar Sarayı Kompleksinə daxil olan Saray binasının 2-ci mərtəbəsində və Divanxanada, Şəki şəhərində yerləşən Şəki Xan sarayında, Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində Möminə-Xatun türbəsində və Qarabağlar kəndindəki Qudi-Xatun türbəsində və 2 minarədə bərpa, konservasiya və rekonstruksiya işləri yerinə yetirilmişdir. "Mədəni İrsin Qorunması Layihəsinin İşçi Qrupu" tərəfindən "Azərbərpa" institutunun arxivinin təmiri üçün ayrılmış vəsait hesabına burada təmir işləri həyata keçirilmiş, arxivdə olan sənədlər kompüterə daxil edilmişdir.

*Şəki rayonunun Kiş kəndindəki və Qəbələ rayonunun Nic kəndindəki Alban məbədlərində Norveç hökuməti tərəfindən maliyyələşdirilən Humanitar təşkilatla əlaqə yaradılmış, məbəddə arxeoloji tədqiqat işləri görülmüş, Mədəniyyət (Mədəniyyət və Turizm - Y.V.) Nazirliyi tərəfindən təsdiq olunmuş layihə əsasında abidələrdə bərpa işləri aparılmışdır.*

*"Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutu 2000-ci ilin 25 noyabrında baş vermiş zəlzələdən zərər çəkmiş abidələrin təmir-bərpa layihəsini hazırlamaq üçün Fövqəladə hallar üzrə Dövlət komissiyasından sifarişlər almış və onları yerinə yetirmək üçün fəaliyyətə başlamışdır.*

*Yaşar VƏLİYEV*

Ədəbiyyat

1. Z. Verdiyeva "Bir ömrə sığmayan arzular". B. "Şərq-Qərb", 1992.
2. T.Bünyadov "Əsrlərdən gələn səslər". B. Azərbaycan Dövlət Nəşriyyatı, 1993.
3. T.Bünyadov "Mərd qalalar, sərt qayalar". B. "Azərnəşr", 1986.
4. T.Bünyadov "Azərbaycan arxeoloji oçerkləri". B. "Azərnəşr", 1986.
5. "Mədəni irsin qorunmasına dair normativ hüquqi aktlar toplusu". B. "Elm", 2001.
6. S.Qazıyev "Azərbaycanın qədim abidələri". B.1948.
7. R.Göyüşov "Azərbaycan arxeologiyası". B.1986.
8. N.Həsənzadə "Kulturologiya". B.2005.
9. V.Əsədov "Tariximiz, abidələrimiz, sərvətimiz". "Mədəni-maarif işi" jurnalı 2004 №2/3.
10. N.Rzayev "Əcdadlarımızın izi ilə". B.1992.
11. T.Əhmədov "Azərbaycanın şirsiz saxsı məmulatı". B.1969.
12. Ə.Tağıyev, Y.Əliyev "Kulturologiya". B.1997.
13. P.Bülbüloğlu "İnsan, zaman, mədəniyyət". "Mədəni-maarif işi" jurnalı 2001 №7/8.
14. Ə.Vəliyev "Abidələr:dünən, bu gün, sabah", "Ekspress" qəzeti, 4 sentyabr 2001-ci il.
15. B.Qubadoğlu "Mədəniyyət tarixi", II s. B. "Nasir", 2002.
16. V.Axundov "Abidələr mənəvi dayağımızdır". "Mədəni-maarif işi" jurnalı 1990 №1.